

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı


**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 64 (23.706)

*10 aprel 2021-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 9-da BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkırı qəbul edib.

Dövlətimizin başçısı bildirib ki, biz fəxr edirik ki, qardaş ölkənin nümayəndəsi BMT Baş Məclisinin prezidentidir, COVID-ə baxmayaraq, 75-ci sessiyanın uğurla davam etməsində böyük səyləri vardır.

Prezident İlham Əliyev BMT qurumları ilə ənənəvi sıx əlaqələrdən danışıb, bu əlaqələrin müharibədən sonrakı dövr ərzində də davam etdiriləcəyini, BMT-nin dünyanın aparıcı qurumu kimi postmünaqişə dövründə də fəal olmasının zəruriliyini bildirib. Ölkəmizin başçısı vurğulayıb ki, Dağlıq Qarabağ münaqişəsi tarixdə qalıbdır. Artıq quruculuq dövrü, bərpa dövrünə start verilmişdir və BMT-nin bütün qurumları ilə, o cümlədən biz artıq UNESCO ilə sıx təmasdayıq.

BMT Baş Assambleyasının 75-ci sessiyasının prezidenti Volkan Bozkır Azərbaycana BMT Baş Assambleyasının sədri olaraq ilk səfərini etməkdən böyük məmnunluq və qürur duyduğunu, Azərbaycanın BMT üçün çox önəmli bir ölkə olduğunu vurğulayıb.

* * *

Prezident İlham Əliyev həmin gün Rusiya Federasiyasının Baş prokuroru İqor Krasnovu qəbul edib. Söhbət zamanı əməkdaşlığımızın bundan sonra da genişlənəcəyinə əminlik ifadə olunub, perspektiv məsələlər müzakirə edilib.



## Ordubad Rayon Uşaq Xəstəxanası fəaliyyətə başlayıb

Aprelin 9-da Ordubad Rayon Uşaq Xəstəxanası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.





Ordubad Rayon Uşaq Xəstəxanasının baş həkimi Dürdanə Quliyeva demişdir ki, xəstəxana müasir tələblər səviyyəsində qurulmuş, uşaqların dünya səhiyyə sisteminin tələblərinə uyğun müayinə və müalicəsi üçün hərtərəfli şərait yaradılmışdır. Görülən işlər Ordubad rayonunda uşaqların tam keyfiyyətli tibbi xidmətlə əhatə olunmasına imkan verəcəkdir. Dürdanə Quliyeva kollektiv adından minnətdarlıq etmiş, Ali Məclis Sədrinin ***"Uşaqların sağlam böyüməsi ölkəmizin sağlam gələcəyinə xidmət edir"*** fikrini rəhbər tutaraq uşaqların sağlamlığının qorunmasında səylərini daha da artıracaqlarına, göstərilən etimadı doğruldacaqlarına söz vermişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad Rayon Uşaq Xəstəxanasının istifadəyə verilməsi münasibətilə kollektivi və sakinləri təbrik edərək demişdir: Bu gün Ordubad rayonunda 51 mindən artıq əhali yaşayır. Əhalinin 18 minə yaxını 1-17 yaş qrupunda olan uşaqlardır. Rayon əhalisinə 1 Mərkəzi Xəstəxana, 1 Gigiyena-Epidemiologiya Mərkəzi, 12 ambulatoriya və 19 feldşer-mama məntəqəsi vasitəsilə tibbi xidmət göstərilir. Ali Məclis Sədrinin 2020-ci il 7 yanvar tarixli Sərəncamı ilə yaradılmış Ordubad Rayon Uşaq Xəstəxanası da bu gün rayon səhiyyə müəssisələrinin sırasına daxil olur. "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq muxtar respublikada ardıcıl tədbirlər görülür. Dövlət proqramı çərçivəsində, ilk növbədə, Naxçıvan Muxtar Respublika Uşaq Xəstəxanası yenidən qurularaq lazımi tibbi avadanlıqlarla təmin edilmişdir. Daha sonra Şərur Rayon Uşaq Xəstəxanası müasir şəkildə qurularaq istifadəyə verilmişdir.



Ali Məclisin Sədri demişdir: Ordubad rayonunda da uşaq xəstəxanasının yaradılmasına ehtiyac var idi. Müvafiq sərəncamdan sonra burada lazımi işlər həyata keçirilmiş və bu gün kollektivin istifadəsinə 54 adda müxtəlif təyinatlı tibbi avadanlıqlarla təmin olunmuş, stasionar və poliklinika şöbələrindən ibarət olan müasir uşaq xəstəxanası verilir. Səhiyyə müəssisəsində hərtərəfli şərait yaradılmışdır. Bu da kollektivin üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməsinə imkan verəcəkdir. Qarşıda duran əsas vəzifə rayonda bütün uşaqların qeydiyyata alınması, dövlət proqramında nəzərdə tutulan tədbirlərin vaxtında həyata keçirilməsi və uşaqların sağlamlığının diqqətdə saxlanılmasıdır. Ona görə ki, uşaqlar gələcəyimizdir. Onların sağlam böyüməsi, yaxşı təhsil alması isə ölkənin gələcəyinə xidmət edir.

Ali Məclisin Sədri yaradılan şəraitdən düzgün istifadə olunacağına əminliyini bildirmiş və kollektivə işlərində uğurlar arzulamışdır.




Xəstəxana ilə tanışlıq zamanı məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 10 çarpayılıq səhiyyə ocağında stasionar şöbə və poliklinika bölməsi

*Ardı 2-ci səhifədə*

fəaliyyət göstərir, 59 nəfərdən ibarət tibbi heyət çalışır. Zirzəmidə peyvənd-dispanserizasiya, mühasib-statist, yeməkxana, camaşırxana, qazanxana, anbar və digər köməkçi otaqlar yerləşir.

Birinci mərtəbədə qeydiyyat-qəbul, təcili tibbi yardım və manipulyasiya, laboratoriya, fizioterapiya, ultrasəslə müayinə, icbari tibbi sığorta, qəbul üzrə həkim, psixoloq-loqoped, stomatoloq, infeksionist-ftiziatr, izolyator və baş tibb bacısı otaqları vardır. İkinci mərtəbədə isə baş həkim, oftalmoloq, LOR, ordinator, 4 palata, reanimasiya və intensiv terapiya zalı, eləcə də iş otaqları yerləşir. Xəstəxanada mərkəzi oksigen sistemi və Ordubad Rayon Mərkəzi Xəstəxanasına inteqrasiya olunmuş nümunəvi tibbi informasiya sistemi yaradılmış, 12 kompüter və 3 printer quraşdırılmış, 2 stomatoloji qurğu, USM, EKQ, EEQ, pediatrik süni tənəffüs aparatı, hematoloji analizator olmaqla, ümumilikdə, 54 tibbi avadanlıq alınmış, “FİAT” markalı təcili tibbi yardım avtomobili verilmişdir.

Ali Məclisin Sədri təcili tibbi yardım avtomobilinin açarını təqdim etmiş, uşaqlarda tibbi müayinə və peyvəndlərin vaxtında aparılması, həkimlərin kurslara göndərilməsi, kadr hazırlığının diqqətdə saxlanılması, həkim briqadalarının kəndlərə göndərilməsi barədə tapşırıqlar vermişdir.

Xəstəxana mərkəzi istilik sistemi ilə təmin olunmuşdur.



## Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə müasir tədris şəraiti yaradılıb





Aprelin 9-da Ordubad şəhər 1 nömrəli tam orta məktəb istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 612 şagird yerlik məktəbdə 33 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, 



2 şahmat sinfi, 2 kompüter, 2 müəllimlər otağı, psixoloq otağı, STEAM kabinəsi, kitabxana, qarderob, idman zalı, bufet və digər texniki otaqlar vardır. Məktəbdə 43 kompüter və 5 elektron lövhə quraşdırılmış, internetə çıxış təmin olunmuşdur. Kitabxana fondunda 4208-i dərslik və 5575-i bədii ədəbiyyat olmaqla, 9783 kitab vardır.

STEAM kabinəsi 2 kompüter, 1 elektron lövhə, 3D printer, robotların hazırlanması üçün müxtəlif elektron hissə və alətlər, mikrobit, arduino setləri və digər qurğularla təchiz olunmuşdur. STEAM kabinəsində şagirdlər hazırladıqları layihələri Ali Məclisin Sədrinə təqdim etmişlər.

Məktəbin müəllimi Natəvan Fərzəliyeva minnətdarlıq edərək demişdir ki, məktəbimizdə STEAM təhsil metodunun tətbiqi üçün kabinə yaradılmış və müxtəlif avadanlıqlarla təchiz olunmuşdur. Şagirdlər bu avadanlıqlarla tanış olaraq 3D modelləşdirmə, mikrobit, arduino ilə işləmə biliklərinə yiyələnirlər.

2020-2021-ci tədris ilində məktəbin birinci sinfinə 32 şagird qəbul olunmuşdur. Ötən tədris ilində məktəbi bitirən 20 məzundan 18-i ali, doqquzillik bazadan 4 şagird orta ixtisas məktəblərinə, 1 şagird isə Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdur. Ali təhsil müəssisələrinə qəbul olanların 2-si 500-700 intervalında bal toplamışdır. Müəllimlərdən 2-si “Azərbaycan Respublikasının Əməkdar müəllimi” fəxri adına, 2-si isə “Tərəqqi” medalına layiq görülmüşdür.

Ali Məclisin Sədri hərbi hazırlıq kabinəsinə baxış zamanı gənclərlə hərbi-vətənpərvərlik işinin düzgün təşkilinin əhəmiyyətini vurğulamış, hərbi hazırlıq fənninin tədrisinin yüksək səviyyədə aparılması barədə tapşırıq vermişdir.

Muxtar respublikanın ümumtəhsil məktəblərində dəqiq elmlərə marağın artırılmasında, ən əsası isə şagirdlərin əqli inkişafında şahmatın tədrisi mühüm vasitədir. Şahmat avadanlıqları və dərsliklərlə təmin olunmuş sinif otaqlarının istifadəyə verilməsi bu sahəyə marağı artırır.

Elektron lövhəli sinifdə “Xan Sarayı” Dövlət Tarix-Memarlıq Muzeyi ilə 200-dən artıq ümumtəhsil məktəbi arasında keçirilən interaktiv dərs izlənilmişdir.

Gənc müəllim Günay Məmmədova demişdir: “Muxtar respublikada gənclərə yüksək diqqət və qayğı göstərilir. Yaradılan şəraitin nəticəsidir ki, Naxçıvan şəhərində yaşamağıma baxmayaraq, müəllimlərin işə qəbulu imtahanında iştirak etmiş və Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə riyaziyyat-informatika müəllimi kimi fəaliyyətə başlamışam. Şagirdlərə müasir tədrisin metodlarını öyrətməklə gənclərə göstərilən etimadı doğrultmağa çalışacağam”.

Ali Məclis Sədrinin 14 fevral 2020-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq məktəbdə Ağır Atletika İdman Klubu yaradılmışdır. Klubun fəaliyyəti üçün 1 velosiped, 1 xizək, 3 universal güc, 3 ağırlıqqaldırma trenajorları, 3 dəst 30 kiloqramlıq ağırlıqqaldırma aləti, 15 kiloqramlıq 8 rezin qantel alınmışdır.

Ali Məclisin Sədri digər məktəblərdə də idman klublarının yaradılması barədə tapşırıqlar vermiş, məktəbin pedaqoji kollektivi ilə görüşmüşdür.

Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir: Bu ilin ötən dövründə Şərur rayon Şəhriyar və Ordubad rayon Nüsnüs kənd tam orta məktəbləri yenidən qurularaq istifadəyə verilmişdir. Hazırda Naxçıvan şəhər Kimya-Biologiya Təmayüllü Liseydə, Şərur rayon Çərçiboğan, Dərvişlər, Babək rayon Sirab, Araz, Ordubad rayon Əndəmic, Vələver, Pəzməri və Dırnıs məktəblərində tikinti-quruculuq işləri aparılır. Təhsil müəssisələrində sürətli internetə çıxışı olan 5700-dən artıq kompüter və 650-dən artıq elektron lövhə quraşdırılmışdır. Ötən dövrdə Heydər Əliyev



adına tam orta məktəbdə STEAM Tədris Mərkəzi, 4 məktəbdənkənar təhsil müəssisəsində və 11 tam orta məktəbdə STEAM kabinələri yaradılmışdır. Hazırda 38 tam orta məktəbdə STEAM kabinələrinin yaradılması istiqamətində işlər aparılır. Ordubad şəhər 1 nömrəli tam orta məktəbdə yaradılan müasir tədris şəraiti tədrisin səviyyəsinin artmasına, daha yüksək nəticələrin əldə olunmasına, bilikli və vətənpərvər gənclərin yetişdirilməsinə geniş imkanlar açır. Rəhman Məmmədov yaradılan şəraitə görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Məktəbin müəllimi Turanə Səfərli demişdir: “Tarixin heç bir dövründə Naxçıvan indiki qədər abad olmamış və inkişaf etməmişdir. Muxtar respublikamızın bütün rayon və şəhərləri, o cümlədən Ordubad rayonu da simasını dəyişmiş və müasirləşmişdir. Təhsil quruculuğuna xüsusi diqqət göstərilir. Bunun əyani ifadələrindən biri də Ordubad şəhər 1 nömrəli tam orta məktəbin müasir məktəblər sırasına qoşulmasıdır. Bu məktəb binası bütün müəllim, şagird və valideynlərə sevinc bəxş etdi. Yaradılan şərait şagirdlərin yüksək səviyyədə təhsil almalarına geniş imkan açmaqla yanaşı, biz müəllimləri də daha yaxşı işləməyə ruhlandırır”.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov kollektivi təbrik edərək demişdir: Bu gün Ordubad şəhər 1 nömrəli tam orta məktəb müasir tələblər səviyyəsində qurularaq kollektivin istifadəsinə verilir. Əgər XX əsr texnika dövrü idisə, XXI əsr yeni texnologiya əsridir. O dövrdə məktəbdə əmək təlimi otağı yaradılırdısa, bu gün STEAM kabinəsi qurulur, laboratoriyalar istifadəyə verilir, məktəb və tədris dövrün tələbinə uyğunlaşdırılır. Elektron lövhələr, kompüter sinifləri, laboratoriyalar və kabinələrlə təmin olunmuş Ordubad şəhər 1 nömrəli tam orta məktəb də yeni texnologiyaların tədrisdə tətbiq edilməsinin göstəricisidir. Belə məktəblərin tikilməsi ölkənin vəsaiti hesabına həyata keçirilir. Məktəb kollektivi yeni texnologiyaları yaxşı mənimsəməlidir ki, uşaqlara da yaxşı öyrədə bilsinlər. Ona görə ki, gənclər ölkənin gələcəyi, quruculardır. Qəbul olunan dövlət proqramları, həyata keçirilən tədbirlər onların yaxşı təhsil almalarına hesablanıb.

*Ardı 3-cü səhifədə*





“Məktəb əvvəllər şəraitsiz vəziyyətdə idi. Bu da tədrisin müasir tələblər səviyyəsində təşkilinə maneçilik yaradırdı. Lakin buna baxmayaraq, müəllimlərin tələbkarlığı, nizam-intizam və şagirdlərin çalışqanlığı son 5 ildə məktəbin qəbul göstəricilərində 81 faiz nailiyyətin əldə olunmasına imkan vermişdir”, – deyən Ali Məclisin Sədri kollektivə fədakar əməyinə görə təşəkkür etmiş, gələcək tədrisdə uğurlar arzulamışdır.

Ali Məclisin Sədri yeni texnologiyaların öyrənilməsi, gənc müəllimlərin işləməsi üçün şəraitin yaradılması, kitab müzakirələrinin keçirilməsi, yaradılanlardan səmərəli istifadə olunması, ərazidə yaşıllıqların və meyvə ağaclarının artırılması ilə bağlı tapşırıqlar vermişdir.

Bina istilik sistemi ilə təchiz edilmiş, həyətdə açıq idman qurğuları quraşdırılmış, abadlıq işləri aparılmışdır.

## Ordubad şəhərində yeni futbol stadionu qurulur

Aprelin 9-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ordubad şəhərində qurulan futbol stadionunun layihəsinə baxmış, görülən işlərlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, yeni stadionda hazırda qaçış zolaqlarının asfaltlanması, 400 yerlik oturacaqların və avtomobil dayanacağının qurulması işləri görülür. Meydançada soyunma-geyinmə otaqlarının, tribunanın, işıqlandırma sisteminin yaradılması da nəzərdə tutulmuşdur.

Ali Məclisin Sədri stadionun standartlara uyğun qurulması barədə tapşırıq vermişdir.



## Yeni innovativ dərnəklər yeni təfəkkürlü gənclər formalaşdırır





Muxtar respublikanın məktəbdənkənar təhsil müəssisələrinin fəaliyyətinin təşkili həyata keçirilən təhsil islahatlarının əsas istiqamətlərindəndir. Xüsusilə yeni innovativ dərnəklərin yaradılması uşaqların asudə vaxtlarının səmərəli təşkili və intellektual inkişafı, onların istedad və bacarıqlarının üzə çıxarılması, yaradıcılıq qabiliyyətlərinin genişləndirilməsi, milli dəyərlər zəminində tərbiyələri üçün zəruri şərait yaradır.

Aprelin 9-da Ordubad rayonunda yaradılmış innovativ dərnəklərin təqdimatı olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov dərnəklərin fəaliyyəti ilə maraqlanmış, şagirdlərin əl işlərindən ibarət sərgiyə baxmışdır.

Məlumat verilmişdir ki, Ordubad rayonunda Uşaq-Gənclər Yaradıcılıq və Texniki Yaradıcılıq mərkəzləri, Şahmat və Uşaq-Gənclər İdman məktəbləri olmaqla, 4 məktəbdənkənar təhsil müəssisəsi fəaliyyət göstərir. Həmin müəssisələrdə 1209 şagirdin təhsili ilə 59 müəllim məşğul olur.

Ordubad Texniki Peşə və Sürücülük Məktəbinin 3-cü mərtəbəsində yerləşən Uşaq-Gənclər Yaradıcılıq və Texniki Yaradıcılıq mərkəzlərində, ümumilikdə, 37 dərnək fəaliyyət göstərir ki, onlardan 20-si yeni yaradılan innovativ dərnəkdir. Dərnəklərə 8-i sağlamlıq imkanları məhdud uşaq olmaqla, 614 şagird cəlb olunub ki, onların təlim-tərbiyəsi ilə 34 dərnək rəhbəri məşğul olur.

Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində rəqs, gimnastika, rəsm, xalçaçılıq, bujiteriya, ebru sənəti, ingilis dili, bədii tikmə, toxuculuq və bədii qiraət dərnəkləri fəaliyyət göstərir.



Texniki Yaradıcılıq Mərkəzində isə robotexnika, kompüter mühəndisliyi və STEAM, mental-aritmetik, memarlıq-dizayn, ağac üzərində oyma, ağac üzərində yandırma, metal üzərində bədii döymə, heykəltəraşlıq, dulusçuluq, qum sənəti dərnəkləri yaradılmışdır. İnnovativ dərnəklər üçün 213 yerlik 16 sinif otağı və 1 xidməti otaq ayrılmış, 6 elektron lövhə və 20 kompüter quraşdırılmış, 3D printer, STEAM qurğuları, 20 dəst geyim, idman alətləri, 15 molbert, 5 hana, çertyoj lövhəsi, elektrikli dəzgahlar, 10 elektrikli yandırma aləti, 12 heykəltəraşlıq və dulusçuluq dəzgahı, 5 elektrikli qum stolu, eləcə də lazım olan digər ləvazimatlar, xammal və mebellər alınmışdır.

Mental-aritmetik dərnəyində şagirdlər Azərbaycan və rus dillərində saymaqla və şeir qiraət etməklə hesablama aparmışlar.

Robotexnika, kompüter mühəndisliyi və STEAM dərnəklərində şagirdlər hazırladıqları yük daşıyan robot, ağıllı ev, rütubətölçən cihaz, külək elektrik stansiyasının modeli və digər layihələri təqdim etmiş və onlar haqqında məlumat vermişlər.

Dərnək rəhbərlərindən Aliyə Haşımova və Pərvin Hacıyev kollektiv adından minnətdarlıq etmişlər. Qeyd olunmuşdur ki, Ali Məclis Sədrinin gələcəyimiz olan uşaqlara göstərdiyi diqqət və qayğının nəticəsidir ki, onların asudə vaxtlarının səmərəli təşkili üçün mərkəzdə innovativ dərnəklər yaradılmışdır. Bu dərnəklər milli-mənəvi dəyərlərin qorunmasını, gələcək nəsillərə çatdırılmasını, uşaqların intellektual səviyyələrini inkişaf etdirmələrini təmin edir.

Ali Məclisin Sədri demişdir: Məktəbdənkənar müəssisələr şagirdlərin asudə vaxtlarının təşkilində və peşə seçimlərində çox əhəmiyyətlidir. Muxtar respublikada məktəbdənkənar müəssisələrin formalaşmasına bir neçə il bundan əvvəl başlanılıb. Ordubad rayonunun məktəbdənkənar müəssisələrində də 37 dərnəkdən 20-si yeni qurulub ki, onlar da, əsasən, yeni texnologiyaları və milli dəyərləri əhatə edir. Bu dərnəklərin fəaliyyəti üçün bundan sonra da lazımi köməklik göstərilməlidir. Əvvəllər muxtar respublikada keçirilən sərgilərə yalnız evlərdə olan bir neçə çeşiddə qədim əl işləri çıxarılırdısa, son zamanlar belə sərgilərdə hazırlanan əl işlərinin çeşidləri artmışdır. Xüsusilə də sərgilərdə sağlamlıq imkanları məhdud şəxslərin əl işlərinin üstünlük təşkil etməsi yaradılan şəraitin nəticəsidir. Ona görə də milli dəyərləri əks etdirən dərnəklərin hər il muxtar respublikada sərgi-satışı, texniki dərnəklərin isə gələcəkdə təşkil olunacaq texnologiya festivalında iştirakı təmin edilməlidir. Uşaqlarda bu sahəyə böyük maraq var. Bu səbəbdən də onlar dərnəklərə daha çox cəlb edilməlidir.

Ali Məclisin Sədri muxtar respublikanın bütün məktəblərində STEAM kabinələrinin qurulub başa çatdırılması, müəllimlərin kurslara cəlb olunması, şagirdlərin asudə vaxtlarının təşkili üçün məktəb və məktəbdənkənar müəssisələrdə işlərin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*Aprel ayının ilk həftəsindən başlayaraq Türkiyə Respublikasının müxtəlif şəhərlərində "43-cü Tikinti materialları və texnologiyaları" beynəlxalq sərgisi və "32-ci Beynəlxalq mebel sərgisi" keçirilir.*

## Sahibkarlarımızın xarici bazarlara marağı artıb

İstanbul şəhərində inşaat sahəsində fəaliyyət göstərən şirkətlərin məhsul və xidmətlərinin daha geniş auditoriyaya təqdim edilməsi, satış imkanlarının genişləndirilməsi və yeni biznes əlaqələrinin qurulması məqsədilə təşkil edilən "43-cü Tikinti materialları və texnologiyaları" beynəlxalq sərgisində Türkiyə, Yaxın Şərq, Mərkəzi Asiya, Şimali Afrika və dünyanın digər yerlərindən tikinti sahəsində fəaliyyət göstərən şirkətlər iştirak edir.

İqtisadiyyat Nazirliyi tərəfindən muxtar respublikada tikinti sektorunda fərqlənən "Cahan Holdinq" və "Gəmiqaya Holdinq"in nümayəndələrinin sərgidə iştirakı təmin edilib. Tikinti sektorunun inkişaf etdiyi bir zamanda iş adamlarımızın bu cür beynəlxalq sərgidə iştirak etməsi muxtar respublikada tikinti sahəsinin müasir dövrün tələblərinə uyğun olaraq inkişafının mühüm göstəricisidir.

Sərgi çərçivəsində iştirakçılar ən yeni tikinti texnologiyaları və təkmilləşdirilmiş inşaat xidmətləri ilə tanış olacaq, xarici tikinti şirkətləri ilə kommersiya əlaqələri yaratmaq imkanı qazanacaqlar.

Növbəti sərgi Türkiyə Respublikasının İzmir şəhərində yerləşən "İzmir Fuar" Sərgi Salonunda açılan "32-ci Beynəlxalq mebel sərgisi"dir. Sərginin məqsədi müxtəlif növ mebel və ev dekorasiyasının istehsalçıları ilə alıcıları arasında birbaşa əlaqələr yaratmaqdır. 35 ölkədən olan 317 iştirakçının məhsullarının nümayiş etdiriləcəyi sərgiyə muxtar respublikada fəaliyyət göstərən "Gəmiqaya Mebel Fabriki" Məhdud Məsuliyyətli Cəmiyyəti nümayəndəsi də qatılıb. Brendlərin reklamı və yeni tərəfdaşların tapılması məqsədilə qarşı tərəfə muxtar respublikada istehsal olunan məhsullar haqqında geniş məlumat verilib.

Qeyd edək ki, aprelin 12-dən 16-dək Moskva şəhərində keçiriləcək "Prodekspo – 2021" sərgisində muxtar respublikada qida sektorunda fərqlənən "Ləzzət Qida Sənaye" Məhdud Məsuliyyətli Cəmiyyətinin nümayəndələrinin iştirak etməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Ölkə çempionatından daha bir kubok



Bakı şəhərində "Nizami Gəncəvi ili"nə həsr edilmiş gənclər arasında "Xəmsə" milli intellektual oyunu üzrə XIII Azərbaycan çempionatı keçirilib. Gənclərin İntellektual İnkişaf Mərkəzi tərəfindən keçirilən növbəti çempionat 5-8 aprel tarixlərini əhatə edib. Naxçıvan Muxtar Respublikasını yarışda "Diplomat" komandası təmsil edib. Televiziya formatında keçirilən çempionatda qrup oyunları və yarımfinal mərhələsini uğurla tamamlayan təmsilçilərimiz finala vəsiqə qazanıblar. Komandamız həlledici mərhələdə də uğurla çıxış edərək mükafatçılar sırasına düşməyi bacarıb.

Ümumilikdə, 4900 xal toplayan "Diplomat" yekun nəticələrə əsasən çempionatı ikinci sırada tamamlayıb. Abşeronun "Golden" komandası birinci pilləyə layiq görülüb. "Diamond are forever" isə üçüncü olub. Komandamızın heyətində "Naxçıvan" Universitetinin İdarəetmə fakültəsinin dekan müavini Tural Məmmədzadə və Naxçıvan Dövlət Universitetinin tələbələri Qulu Əlisoy, Əli Əliyev, Fərid Hacıyev, Zamin İbrahimov mübarizə aparıblar. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin əməkdaşı Valeh Mahmudov muxtar respublikanı təmsil edən nümayəndə heyətinin məsul şəxsi kimi iştirak edib.

Qeyd edək ki, komandalarımız "Xəmsə" milli intellektual oyunu üzrə ölkə çempionatlarında davamlı olaraq təmsil edilir. "Diplomat" komandası qaliblər sırasına düşməklə, muxtar respublikamızı təmsil edən ən uğurlu komanda kimi adını çempionat tarixinə yazdırıb.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Tibb işçiləri üçün maarifləndirici tədbirlərə start verilib

*Aprelin 8-də Kəngərli və Şərur, 9-da isə Babək və Şahbuz Rayon Mərkəzi xəstəxanalarında hepatit B, C və qanla keçən virus xəstələrinin müayinəsi, müalicəsi və profilaktikası tədbirlərinin daha da yaxşılaşdırılması üzrə maarifləndirici tədbir keçirilib.*



Xəstəxanaların baş həkimləri bildiriblər ki, bu məsələ Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin ötən ay keçirilmiş kollegiya iclasında müzakirə olunub, müvafiq qərar qəbul edilib. Hər ay bölgələr üzrə aşkar olunan virus B və C hepatitli, eləcə də qanla keçən digər ilkin xəstələr haqqında ərazi Gigiyena və Epidemiologiya şöbələrinə müntəzəm məlumat verilir. Hepatit B, C və qanla keçən virus xəstələrinin müayinəsi, müalicəsi və profilaktikası səhiyyə müəssisələrinin fəaliyyətində üstün istiqamət təşkil edir.

Naxçıvan Muxtar Respublikası Yoluxucu Xəstəliklər Mərkəzinin həkimlərindən Adil İbrahimov bildirib ki, bütün dövlət və özəl tibb müəssisələrində xəstələrdə hepatit B və C virusunun, eləcə də qanla keçən digər infeksiyaların ilkin olaraq ekspres metodla müayinələrinin aparılmasına nəzarət daha da gücləndirilib. Qanla təmasda olan tibb heyətinin qorunması məqsədilə onlara qrafikə uyğun hepatit B virusuna qarşı peyvəndin vurulması işinə ciddi nəzarət edilir.

Mərkəzin həkimləri Xədicə Qazıyeva dəri-zöhrəvi xəstəliklərində qorunma yolları, Məlahət İsmayılova isə laborator-diaqnostik müayinə üsulları və kart testlərinin tətbiqi barədə məlumat veriblər.

Sonra tibb işçilərinin qanla təmasda olduqları laboratoriya və şöbələrə, əməliyyat otaqlarına, stomatoloji kabinələrə baxış keçirilib, monitorinq aparılıb, tövsiyələr verilib.

Qeyd olunub ki, Yoluxucu Xəstəliklər Mərkəzinin əsas təyinatı əhalini xəstəliklərə yoluxmamaları üçün vaxtında maarifləndirmə və profilaktik tədbirlərin aparılmasından ibarətdir. Muxtar respublikada bu işlərin görülməsi üçün geniş imkanlar vardır. Mərkəzdə fəaliyyət göstərən Yoluxucu xəstəliklər, QİÇS-lə mübarizə və Dəri-zöhrəvi xəstəlikləri şöbələri üzrə hər hansı bir xəstəlik aşkarlandığı zaman həmin xəstələr dərhal qeydiyyata alınaraq müalicəyə cəlb olunurlar. Rayon xəstəxanalarında da yoluxucu xəstəliklərin qarşısının alınması düzgün diaqnozun qoyulmasına nəzarəti gücləndirmək məqsədilə müəyyən işlər görülür.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

## Qarnizon xəbərləri



"Naxçıvan Qarnizonu Qoşunlarının 2021-ci tədris ilinə uzlaşma planı"na əsasən tabor, divizion komandirləri və müavinləri ilə komandir hazırlığı sistemində növbəti məşğələlər keçirilib.

Məşğələlər Əlahiddə Ümumqoşun Ordunun birinci eşelon birləşmələrinin müdafiə zolağında müdafiə və əks-hücum tapşırıqlarının yerinə yetirilməsi mövzuları üzrə taktiki və taktiki-sıra formasında təşkil olunub. Məşğələlər zamanı 44 günlük Vətən müharibəsi iştirakçılarının təcrübələrinin öyrənilməsi məqsədilə yüksəkliklərə hücumun təşkili və aparılması üçün döyüşün müxtəlif epizodları üzrə bölmələrin fəaliyyəti göstərilib.

Yekunda hər bir zabitə fərdi tapşırıqlar və növbəti məşğələlərə hazırlıq üzrə göstərişlər verilib.

* * *

"Naxçıvan" Əlahiddə Sərhəd Diviziyasında Sərhəd Nəzarət məntəqələrinin hərbi qulluqçuları ilə təlim toplantısı keçirilib. Toplantıda hərbi qulluqçuların sıra və fiziki hazırlıqları yoxlanılıb.

Toplantının ikinci günündə mənəvi-psixoloji hazırlıqdan "Hərbi qulluqçuların xidməti vəzifələrinin icrası zamanı vətəndaşlarla ünsiyyətin psixoloji əsasları" mövzusunda məşğələ keçirilib.

Məşğələdə yeni nəsil biometrik şəxsiyyət vəsiqəsilə Azərbaycan və Türkiyə vətəndaşlarının hər iki ölkəyə vizasız gediş-gəlişinin sürətli keçid prosedurları öyrədilib.

Hərbi qulluqçulara dünya pasportlarının atlası, dövlət sərhədini keçməyə hüquq verən bütün növ sənədlərin nümunələri göstərilib, sənədlərin xüsusiyyətlərinin təhqiqatını operativ olaraq müəyyən edən cihazlarla işləmə qaydaları bir daha çatdırılıb.

* * *

Hərbi qulluqçular arasında Naxçıvan Qarnizonu üzrə 3 min metr məsafəyə hərbiləşdirilmiş kross birinciliyi keçirilib.

16 komandanın 48 idmançısı arasından 3 min metr məsafədə hərbiləşdirilmiş kross birinciliyinin bütün tələblərinə ən qısa zamanda əməl edənlər qalib gəliblər. Komanda hesabında 1-ci və 3-cü yerlərə xüsusi təyinatlılar, 2-ci yerə isə motoatıcılar layiq görülüb. Fərdi hesabda 1-ci yerdə müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçu Mahir İbrahimov, 2-ci yerdə əsgər Aqşin Hüseynov, 3-cü yerdə isə əsgər Qurban Allahverdiyev qərarlaşıb. Qaliblərə kubok, fəxri fərman və diplomlar təqdim edilib.

**Kənan CƏLİLOV**

## Ekoloji tədbirlər ətraf mühitin qorunmasına xidmət edir

***Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə həyata keçirilən sosial-ekoloji siyasət uğurla davam etdirilir.***



Ötən ay ətraf mühitin mühafizəsi, qanunsuz ov edilməsi, meşə fondu torpaqlarından qanunsuz istifadə, ətraf mühitə atılan tullantıların normadan artıq olması hallarına qarşı mübarizə aparılması məqsədilə 15 yoxlama-reyd keçirilmiş, 3 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbirlər görülmüşdür. Muxtar respublikanın təbiətinin qorunması üçün inzibati tədbirlərlə yanaşı, əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri də icra edilmişdir. Bu məqsədlə Ordubad rayonunun Aşağı Əndəmic və Şərur rayonunun Qarxun kəndlərində əhali arasında ekoloji-hüquqi maarifləndirmə tədbirləri keçirilmiş, ətraf mühitin mühafizəsi, brokonyerlik hallarına qarşı birgə mübarizə, yaşıllıqların artırılması, çay vadilərinin, suların qorunması və ailə təsərrüfatlarının inkişaf etdirilməsində yabanı meyvə, dərman bitkilərindən səmərəli istifadə yolları və torpaqların münbitliyinin qorunması haqqında müzakirələr aparılmışdır.

Ay ərzində mühüm ekoloji tədbirlərdən biri kimi ekoloji monitorinqlərin aparılması diqqətdə saxlanılmışdır. Bu məqsədlə Babək, Şahbuz, Kəngərli, Sədərək, Culfa, Ordubad və Şərur rayonlarının 26-dan çox yaşayış məntəqəsində monitorinqlər keçirilmiş, aşkar edilən nöqsanların aradan qaldırılması üçün tapşırıqlar verilmişdir. Sədərək Rayon Su Monitorinq Laboratoriyasında mart ayı ərzində Araz çayının muxtar respublika ərazisinə daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən "Şir arxı"ndan hər birindən 12, Arpaçayın muxtar respublika ərazisinə daxil olan hissəsindən isə 4 olmaqla, ümumilikdə, 28 su nümunəsi götürülmüş və 250 analiz aparılmışdır. Analizlərin nəticəsində sularda çirklənmə hallarının yol veriləbilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Muxtar respublika ərazisində, əsasən, torpaqların münbitliyinin qorunmasında, atmosfer mühitinin yaxşılaşdırılmasında və estetik gözəlliyin yaranmasında mühüm amillərdən biri olan yaşıllıqların, meşələrin qorunması və artırılması diqqətdə saxlanılır. Hesabat ayında təsdiq olunmuş sxem-plan əsasında kənd təsərrüfatı əkinləri üçün yararsız olan torpaq sahələrində şoranlaşmış və eroziyaya uğramış torpaqların müəyyənləşdirilərək əkin dövriyyəsinə qaytarılması üçün torpaq hazırlığı işləri aparılmış, müvafiq tədbirlər görülmüşdür. 7 hektar sahədə meyvə bağı salınmış, yaşıllaşdırma tədbirləri zamanı 5483 müxtəlif meyvə tingləri əkilmişdir. Ötən illərdə salınmış meyvə bağlarında bərpa məqsədilə 22 hektara yaxın sahədə 9949 müxtəlif növ meyvə və meşə tinglərindən istifadə olunmuşdur. Toxumla əkin işləri də davam etdirilmiş, 58 hektar sahədə 580 kiloqram müxtəlif toxumlarla əkin aparılmışdır.

Hesabat ayında yeni salınmış meyvə və üzüm bağlarına, tinglik sahələrinə baxış keçirilmiş, həmin ərazilərin ziyanvericilərin təsirindən qorunması, fauna ehtiyatlarının qaba yem və dəşduza olan tələbatının ödənilməsi üçün biotexniki tədbirlər aparılmış, ərazilərə 550 kiloqram daşduz, 30 kip qaba yem və 355 kiloqram meyvə-tərəvəz qalıqları dağıdılmışdır. Həmin ərazilərə yaxın yaşayış məntəqələrində ictimaiyyətlə ətraf mühitin qorunmasına dair ekoloji-hüquqi maarifləndirici söhbətlər aparılmış, yoxlama-reydlər keçirilmişdir.

Gənclərlə işin təşkili məqsədilə yeni ekologiya könüllülərinin iştirakı ilə Babək rayonunun Güznüt gölü ətrafında təmizlik aksiyası keçirilmiş, göl ətrafındakı müxtəlif məişət tullantıları götürülmüş və ərazidə səliqə-sahman yaradılmışdır. Həmçinin Naxçıvançay yatağında könüllülərin iştirakı ilə 1,5 hektar sahədə meyvə bağı salınmış, 1200-dən çox müxtəlif meyvə tingləri əkilmişdir. Eyni zamanda könüllülərə bağın əhəmiyyəti və ətraf mühitin mühafizəsi sahəsində həyata keçirilən tədbirlər haqqında geniş məlumat verilmişdir.

Ordubad rayonunun Sabirkəndində heyvandarlığın daha müasir üsullarla inkişaf etdirilməsi, məhsuldarlığın artırılması, yaylaq- otlaq sahələrindən və biçənəklərdən səmərəli istifadə edilməsi, kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılması və ailə təsərrüfatlarının yaradılması sahəsində heyvandarlar və təsərrüfat sahibləri ilə ekoloji-hüquqi maarifləndirmə tədbirləri keçirilmişdir. Tədbir iştirakçılarına otlaqlardan səmərəli istifadə qaydaları haqqında geniş məlumat verilmiş və maarifləndirici broşürlər paylanmışdır.

Ətraf mühitin qorunmasında əsas amil olan ekoloji tədbirlər növbəti aylarda da davam etdiriləcək.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***


**Bildiriş**

"Daxili Araz Yükdaşıma Şirkəti" MMC-nin adı dəyişdirilərək "Aras Kargo" MMC-yə çevrilmişdir.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Ceyhun Məmmədov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1500. Sifariş № 300